**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

İxtisas: 5904.01 – Siyasi institutlar və sistemlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Nigar Fariz qızı Adilova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun "İnformasiya hüququ" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, dosent
**Xalid Qüdrət oğlu Niyazov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru
**Elnur Bəybala oğlu Hacalıyev**

siyasi elmlər doktoru, prof.
**Vəsilə Cümşüd qızı Hacıyeva**

siyasi elmlər fəlsəfə doktoru
**Rəşad Əsəd oğlu Sadıqov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezident yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: ____________ siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ____________ siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrün əsas əlaqələndirici, hərəkətverici və təsiredici qüvvəsi olan informasiya-kommunikasiya texnologiyalarından, sosial həyatın müxtəlif sahələrində olduğu kimi, siyasi proseslərdə də geniş istifadə olunur. Siyasi sosiallaşmanın, eləcə də dövlət idarəçiliyində siyasi kommunikasiyanın əsas vasitəsi olan bu texnologiyalar siyasi mədəniyyətin formalaşmasında mühüm rol oynayır, həm mədəniyyətə, həm də siyasi mühitə təsir göstərməklə siyasi mədəniyyəti yeniləyir və dəyişir. Deyilənləri nəzərə alaraq, mövzunun aktuallığını aşağıdakı kimi təqdim etmək olar:

- Rəqəmsallaşma dövründə dövlətin fəaliyyətinin səmərəliliyinin artırılması vətəndaşların inkişaf etmiş siyasi mədəniyyəti ilə sıx əlaqəlidir.
- Bu gün siyasi mədəniyyət vətəndaşların siyasi bilik, düşüncə və davranışlarında təzahür etsə də, onun kökü qədim mədəniyyətdən qaynaqlanır. İnformasiya cəmiyyətində mədəni inteqrasiyanın artdığı bir dövrdə mədəniyyətin dəyişməsinin ona təsirinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan fərdi və kütləvi şəkildə dəyərlərin dəyişmə meyarlarını nəzərdən keçirmək vacibdir.
- Siyasi proseslərdə informasiya-kommunikasiya texnologiyalarından müxtəlif məqsədlər üçün istifadə edilməsi vətəndaşların siyasi əxlaq və davranışına həm müsbət, həm mənfi, həm də gözlənilməz təsir göstərir. Bu təsirlərin vaxtında müəyyənləşdirilməsi və araşdırılması səmərəli siyasi fəaliyyət üçün imkan yaradır.
- Müasir çağırışlara cavab olaraq, Azərbaycanda rəqəmsal vətəndaşlığı daha da inkişaf etdirmək qaçılmaz tələbə çevrilmişdir.
- Vətən müharibəsindən sonra artan siyasi birliyin və siyasi inamın qorunub saxlanmasında və daha da gücləndirilməsində İKT-nin imkanlarından maksimal istifadə zəruridir.
- Azərbaycanda e-hökumətin dövlət idarəetməsinin bütün sahələrində inkişaf etdirilməsi və vətəndaşların rəqəmsal vətəndaşa çevrilməsi paralel fəaliyyət tələb etdiyi üçün bu sahədə geniş araşdırmalara ehtiyac vardır.

Beləliklə, dövlətin və siyasi təsisatların fəaliyyətində siyasi mədəniyyətin əhəmiyyətinin, qlobal çağırışların siyasi mədəniyyətə təsir imkanlarının, bu proseslərdə İKT-nin mövqeyinin öyrənilməsi baxımından mövzu aktualdır və bu istiqamətdə tədqiqatın aparılması böyük əhəmiyyət kəsb edir.

Bu vaxtadək siyasi mədəniyyətin formalaşması, müasirləşmə və demokratikləşmənin siyasi mədəniyyətə təsiri, internet idarəçiliyi, müxtəlif İKT vasitələrinin siyasi mədəniyyətin ayrı-ayrı komponentlərinə təsiri fərqli mövqelərdən araşdırılmışdır. Siyasi mədəniyyətin ayrıca bir sahə kimi öyrənilməsinə maraq XX əsrdən başlanmışdır. Bu sahədə ilk nəzəri və empirik əsaslı araşdırmalar 1960-ci illərdə Q.Almond və S.Verba[1] tərəfindən aparılmışdır. Müəlliflərin "Vətəndaş cəmiyyəti" adlanan əsəri siyasi mədəniyyətin komponentlərini müəyyən etmək, siyasi sosiallaşma təşkilatlarının, eləcə də mədəniyyət və tarixi təcrübənin siyasi mədəniyyətin formalaşmasında oynadığı rolu nümunə dövlətlərin timsalında başa düşmək baxımından əhəmiyyətli olmuşdur. Əsər özündən sonra bir çox siyasi mədəniyyət nəzəriyyələrinin ortaya çıxmasında baza rolunu oynamışdır. L.Ditmer[2] siyasi mədəniyyəti simvollarla əlaqələndirərək cəmiyyətin davranışlarının təzahürü kimi izah etmiş, S.Çilton[3] isə "münasibətlərin ümumi ictimai üsulu kimi" araşdırmışdır. Qərb müəlliflərinin yanaşmalarının tənqidi və onların genişləndirilməsini həyata keçirən E.Y.Batalov, M.V.Medovarov, A.P.Melnikov[4] kimi

---

[1] Almond G. A. The Civic Culture (Political Attitudes and Democracy in Five Nations) / Verba S. - Newberry Park: Sage Publications, - 1989. - 392 p.

[2] Dittmer L. Political culture and political symbolism: Toward a theoretical synthesis/ Baltimore, MD: John Hopkins University Press, - Vol. 29, – 1977. - p. 552-583

[3] Chilton S. Defining Political Culture: [Electronic resource] / The Western Political Quarterly 41, 3. - Sep., 1988. pp. - 419-445 p. URL:http://links.jstor.org/sici?sici=00434078%28198809%2941%3A3%3C419%3ADPC%3E2.0.CO%3B2-P

[4] Баталов Э.Я. Политическая культура: понятие и феномен // Политика: проблемы теории и практики. - М.: ИНИОН АН, - 1991. 7 (2), - стр. 94–112.; Медоваров М.В. Политическая культура России и зарубежных стран: история и современность: учебно-метод. пособие. - Нижний Новгород: Изд-во ННГУ, - 2019. – 32 с.;Мельников А.П. Политическая культура в жизни общества: учебная пособия / Сокол С.Ф. - Минск, - 2011. – 262 с.

rus müəllifləri tərəfindən də siyasi mədəniyyət mürəkkəb sistem kimi araşdırılmışdır. Qeyd edilən tədqiqatların nəticəsində, siyasi mədəniyyətin əsas struktur elementlərini, mahiyyətini və onun formalaşmasına təsir edən amilləri müəyyən etmək mümkün olmuşdur. Ümumilikdə, siyasi mədəniyyət nəzəri baxımdan siyasi sistemin bir altsistemi kimi həm mikro, həm də makro səviyyədə geniş araşdırılmışdır. Lakin İKT-nin onun formalaşmasında oynadığı rol bu nəzəriyyələrdə kompleks şəkildə təhlil edilməmişdir. Siyasi mədəniyyəti araşdıran müəlliflərdən Q.Almond və S.Verba bu barədə yalnız siyasi sosiallaşma təsisatı kimi medianın rolunu qeyd etmişlər. Eləcə də, siyasi kommunikasiyanı geniş şəkildə (həm media, həm elektron hökumət baxımından) tədqiq edən rus alimi M. Qraçev onun məhz siyasi mədəniyyətə təsirini kompleks şəkildə araşdırmamışdır. [5]

Kütləvi informasiya vasitələrinin ictimai fikrə, eləcə də düşüncə və duyğulara təsiri ilə bağlı fundamental araşdırmalar hələ keçən əsrin əvvəllərindən aparılmış, müəyyən nəzəriyyələr formalaşmışdır. Bu nəzəriyyələrin sistemləşdirilməsini C. Brayant və S.Tompson həyata keçirmişlər.[6] D.Bell ("Post-sənaye cəmiyyətinin gəlişi: Sosial proqnozlaşdırmada bir təşəbbüs"), E.Toffler ("Üçüncü dalğa"), M.Kastels ("Şəbəkə cəmiyyəti") kimi müəlliflər isə yeni informasiya mühitinin cəmiyyətlərə təsirini bilik və informasiyanın gücü ilə əlaqələndirməyə çalışmışlar.[7] Digər tərəfdən, texnologiyaların cəmiyyətlərə və eləcə də, həyat tərzinə, davranışlara təsirinə dair yanaşmaları İ.V.Poel araşdırmışdır.[8] B.J.Fogg isə texnologiyaların

[5] Грачев М.Н. Политическая Коммуникация: Теоретические концепции, модели, векторы развития/М.Н. Грачев. – Москва: Прометей, - 2004. – 328 с.
[6] Брайант Дж., Томпсон С. Основы Воздействия СМИ/ пер. с английского В.В. Кулебы и Я.А. Лебедева. - Москва, Санкт-Петербург, Киев: Издателсьский дом «Вильяме», - 2004. – 425 с.
[7] Ampuja M, Koivisto J. From 'Post-Industrial' to 'Network Society' and Beyond: The Political Conjunctures and Current Crisis of Information Society Theory: [Electronic resource] /tripleC, - 12 (2). – July 30, 2014. – p. 447-463. URL: https://www.triple-c.at/index.php/tripleC/article/view/568
[8] Poel I.V. Three philosophical perspectives on the relation between technology and society, and how they affect the current debate about artificial intelligence// Human Affairs, - vol. 30, no. 4, - 2020. - pp. 499-511. URL: https://doi.org/10.1515/humaff-2020-0042

müxtəlif yollarla insanların davranışlarına təsiri və onu dəyişmə potensialını tədqiq etmişdir. [9]

Göründüyü kimi, İKT-nin ayrı-ayrı sahələrinin ümumi şəkildə siyasi-ictimai, mədəni-sosial həyata təsiri haqqında çoxsaylı nəzəriyyələr var və bunlar ayrı-ayrılıqda sistemləşdirilmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının bir bütöv halında konkret olaraq siyasi mədəniyyətə təsiri isə nəzəri baxımdan tədqiq olunmamışdır.

Müasir çağırışların siyasi mədəniyyətə təsirini araşdıran müəlliflər də problemi yalnız bir aspektdən işıqlandırmışlar. P. Norrisin bu sahədə əhəmiyyətli araşdırmalarını qeyd etmək lazımdır. O, “Virtuoz dairə (Post-sənaye cəmiyyətlərində siyasi kommunikasiyalar)”, “Mədəni əks-təsir: Tramp, Brexit və avtoritar populizm”, “Rəqəmsal bölünmə: Vətəndaşların iştirakı, informasiya yoxsulluğu və dünyada internet”, "Seçki sferasında səsvermə və siyasi davranış qaydaları" əsərlərində siyasi mədəniyyət adı altında olmasa da, onun komponentlərinə internetin, rəqəmsallaşmanın, informasiya bolluğunun təsirlərini təhlil etmişdir.[10] Lakin bu əsərlərdə əsas tədqiqat predmeti müasir Qərbdə postsənaye cəmiyyətlərinin üzləşdiyi problemlərdir.

İKT-nin özündə ehtiva etdiyi media və e-idarəetmə texnologiyalarının ictimai-siyasi və mədəni-sosial təsirləri ilə əlaqədar araşdırmalar digər müəlliflər tərəfində də aparılmışdır. G.Şener, P.Ö.Emre, F.Akyıldız və O.Metin sosial medianın Türkiyədə

---

[9] Fogg B. J. Persuasive Technology: Using Computers to Change What We Think and Do. Interactive Technologies / B. J. Fogg. - Stanford: Morgan Kaufman, - 2002. –283 p.

[10] Norris P. A Virtuous Circle (Political Communications In Postindustrial Societies). – New York: Cambridge University Press, - 2000 (Transferred to digital printing 2006). – 398 p.; Norris P. Cultural Backlash: Trump, Brexit, and Authoritarian Populism/ Norris P., Inglehart R. New York: Cambridge University Press, - 2019. –540 p.; Norris P. Digital Divide: Civic Engagement, Information Poverty, and the Internet Worldwide / Norris P. - Cambridge, UK: Cambridge University Press, - 2001. –303 p.; Norris P. Electoral Engineering Voting Rules and Political Behavior. - New York: Cambridge University Press, - 2004. – 375 p.

siyasi sosiallaşmaya və iştirakçılığa, S.Spir isə sosial medianın kollektiv fəaliyyətə təsir imkanlarını araşdırmışlar.[11]

E-hökumət, e-demokratiya istiqamətində araşdırmalar M.Kassen (e-hökuməti qlobal dəyər kimi tədqiq etmişdir), Ş.Ksia (Şərqi Asiya dövlətlərində e-hökumətin siyasi müasirləşməyə təsiri barədə yazmışdır), M.J.Ahn və S.Bretşnayder (Cənubi Koreyada e-hökumət sistemlərinin siyasi mədəniyyətdə etdiyi dəyişiklikləri təsvir etmişlər), M.Emmer və M.Kunst (e-demokratiya və ona dair müxtəlif nümunələr, bununla bağlı vətəndaş təşəbbüslərindən bəhs etmişlər) tərəfindən aparılmışdır.

Azərbaycanda da bu mövzunun bir sıra aspektlərini əhatə edən məsələlərlə əlaqədar tədqiqat işləri mövcuddur. Medianın yenilənməsi barədə L.Məmmədova, A.Bəşirli, X.Cavadova, S.İzzətli, sosial şəbəkələrin texniki baxımdan izahı və təhlükələri barədə Y.İmamverdiyev, "informasiya cəmiyyəti" konsepsiyaları haqqında R.Əliquluyev, R. Mahmudov bəhs etmişlər.[12]

Bu sahədə Azərbaycana dair görülmüş ən əhəmiyyətli işlər X.Niyazovun Azərbaycanda aparılan informasiya siyasəti və onun ictimai-siyasi proseslərə təsiri və İ. Ömərovun televiziyanın siyasi proseslərdə rolu barədə tədqiqatları hesab oluna bilər. Siyasi mədəniyyətin öyrənilməsi baxımından isə İ.İsmayılovun ("Azərbaycan xalqının siyasi mədəniyyəti"), R.Aslanovanın ("XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya"), eləcə də, F.Məmməmdovun ("Kulturologiya, mədəniyyət, sivilizasiya"), M.Əfəndiyev və S.Əfəndiyevanın ("Şəxsiyyət-mədəniyyət sistemi.

---

[11] Şener G., Emre P. Ö., Akyıldız F. Türkiye'de Sosyal Medyanın Siyasi Katılıma Etkileri // - Cyprus İnternational University: Folklor/ edebiyat, - 2015/3. № 21 (83). - s. 75-98.; Metin O. Sosyal Medyanın Siyasal Toplumsallaşmaya Etkileri: Bir Alan Araştırması // Afyonkarahisar: Afyon Kocatepe Üniversitesi Sosyal Bilimler Dergisi, - Aralık 2016. №18 (2), -– s. 221-267.; və başqaları

[12] Yeni Media Jurnalistikası/ Bəşirli A., Cavadova X., İzzətli S.// Avropa Şurası, - 2017. - 66 s.;İmamverdiyev Y.N. Sosial şəbəkələrin analizi: anlayışlar, modellər və tədqiqat // - Bakı: İnformasiya cəmiyyəti problemləri, - 2010. №2, - s. 9–19.; Əliquliyev R., Mahmudov R. İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri// İnformasiya cəmiyyəti problemləri №2, - 2016. - s. 3–18 [Elektron resource: https://www.researchgate.net/publication/344299094

Sosial-fəlsəfi təhlil") mədəniyyət kontekstindən siyasi mədəniyyəti izah etməsi əhəmiyyətli mövqeyə malikdir. Bundan əlavə, postmüharibə dövründə siyasi bilik problemi İ. Məmmədzadə və S. Həsənov tərəfindən araşdırılmışdır.[13]

Beləliklə, yuxarıda qeyd edilən ədəbiyyat və tədqiqat işləri tədqiq olunan mövzunun ayrı-ayrı hissələrinə dair məzmun və təhlilləri əhatə edir. Lakin İKT-nin siyasi mədəniyyətin formalaşmasında birbaşa və bilvasitə rolu şəklində yanaşma heç bir ədəbiyyatda işlənməmişdir. Xüsusilə, siyasi mədəniyyət və İKT-nin sosial-siyasi mühitə təsir potensialının daima yenilənməsi bu problemin fərqli və daha kompleks şəkildə araşdırılması labüd edir. Təqdim edilən dissertasiya işində ayrı-ayrılıqda aparılan tədqiqatların köməyi ilə və digər elmi metodlardan istifadə edərək problemə yeni bir sistemli yanaşma tətbiq edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti siyasi mədəniyyət və informasiya-kommunikasiya texnologiyalarıdır. Predmeti isə müxtəlif informasiya və kommunikasiya texnologiyalarının siyasi mədəniyyətin struktrur elementlərinə təsiridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ilk öncə müasir çağırışlar fonunda ümumilikdə siyasi mədəniyyətin formalaşmasında yeni medianın, elektron idarəetmə texnologiyalarının, süni intellekt və blokçeyn texnologiyalarının rolunu müəyyənləşdirmək və bunu Azərbaycan nümunəsində təhlil etməkdir. Tədqiqat işində qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

- Siyasi mədəniyyətin əsas komponentlərini və onun formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək.
- İnformasiya-kommunikasiya texnologiyalarının siyasi mədəniyyətə təsirini nəzəri cəhətdən araşdırmaq.

---

[13] Niyazov X. Dövlət İnformasiya Siyasəti (KİV timsalında)/ X. Niyazov. – Bakı: "Elm və təhsil" nəşriyyatı, - 2016. – 324 s.;Niyazov X. İnformasiya cəmiyyəti və elektron hökumət quruculuğu / Cəmiyyət və informasiya: nəzəri-siyasi aspektlər və təcrübə. Elmi məqalələr toplusu. – Bakı: "Elm", - 2019. – 664 s.;Ömərov İ. Azərbaycan Respublikasında siyasi proseslərdə televiziyanın yeri və rolu: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / Bakı, 2009. – 143 s.

- Müasir informasiya və texnologiya mühitində siyasi mədəniyyətin qarşılaşdığı qlobal çağırışları və onların təsirlərini nəzərdən keçirmək.
- Ənənəvi və yeni medianın müxtəlif növlərinin siyasi mədəniyyətə təsir yollarını araşdırmaq.
- Elektron idarəetmə texnologiyalarının, eləcə də süni intellekt və blokchain texnologiyalarının siyasi mədəniyyətə təsir istiqamətlərini müəyyənləşdirmək.
- Postmodernist dəyərlər kontekstində yeni medianın Azərbaycanda siyasi mədəniyyətə təsirini öyrənmək.
- Azərbaycanda iştirakçı siyasi mədəniyyətin formalaşmasında e-idarəetmə texnologiyalarının rolunu təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqat işində həm nəzəri, həm də empirik elmi tədqiqat metodlarına müraciət olunmuşdur. İlk öncə mövzu ilə bağlı geniş nəzəri baza təhlil edilmiş və struktur analiz aparılmışdır. Bunun əsasında yeni nəzəri müddəalar irəli sürülmüşdür. Bununla yanaşı müxtəlif faktlar, statistik məlumatlar təhlil edilmiş, fərqli elektron platformaların kontent analizi aparılmışdır. Dissertasiya işinin tədqiqi ümumilikdə sistemli yanaşma ilə bağlıdır. Əsasən üçüncü fəsildə istifadə edilən sorğu metodu və faktların təhlili həm də burada istifadə edilən müqayisəli təhlil metodunun bir hissəsi kimi həyata keçirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** İrəli sürülən əsas müddəalar aşağıdakılardır:

1. İnformasiya-kommunikasiya texnologiyaları siyasi mədəniyyətin formalaşmasına yeni media və e-idarəetmə sistemləri, süni intellekt və "blokchain" texnologiyaları vasitəsilə təsir göstərir.
2. Dövlətyönümlü siyasi iştirakçılıq və fəaliyyət siyasi kapitaldır və İKT siyasi kapitalın artmasına zəngin məzmun və texniki imkanları ilə təsir edir.
3. E-idarəetmə sistemləri siyasi mədəniyyətin səmərəli və milli maraqlar çərçivəsində inkişafına yeni mediadan daha çox nail ola bilir.
4. Azərbaycanda e-idarəetmə sistemlərini təkmilləşdirilməsi və ondan istifadəyə təşviq edilməsi vətəndaşların daha səmərəli siyasi fəallığına xidmət edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində irəli sürülən elmi yeniliklər əsasən mövzunun qoyuluşu və siyasi mədəniyyətin formalaşmasında İKT-nin iştirakı prosesinə sistemli yanaşma, eləcə də Azərbaycan timsalında aparılan araşdırmalarla əlaqədardır. Tədqiqatın elmi yeniliyinə aşağıdakıları aid etmək olar:

- Müasir cəmiyyətdə İKT-nin siyasi mədəniyyətə təsirinə dair nəzəri aparat müəyyən olunmuşdur.
- Yeni medianın rəqəmsal KİV və sosial şəbəkələrlə yanaşı, e-idarəetmə və "blokchain" texnologiyaları, süni intellekt vasitəsilə siyasi mədəniyyətin ayrı-ayrı komponentlərinə təsir potensialı və nəticələri araşdırılmışdır.
- İnformasiyanın, kommunikasiya vasitələrinin, fərqli quruluşa malik texnologiyaların siyasi mədəniyyətə təsirinin üsul, strategiya və mexanizmləri müasir çağırışlar kontekstində öyrənilmişdir;
- Azərbaycanda siyasi mədəniyyətin inkişafında İKT-nin rolu xarici ölkələrdəki təcrübələrin təhlili əsasında müqayisəli araşdırılmış, bu təcrübələrin müsbət tərəfləri açıb göstərilmişdir.
- Azərbaycanda siyasi mədəniyyətin xüsusiyyətləri informasiya cəmiyyətinə xas dəyərlər kontekstində, e-hökumətin istiqamətində əsas funksiyaları, eləcə də siyasi iştirakçılığın fərqli növlərinin inkişaf səviyyələri təhlil olunmuşdur.
- Postmodern dövrdə sosial kapital zəminində yaranan yeni siyasi iştirakçılığın siyasi inkişafı təmin etmək potensialına malik olduğu vurğulanaraq, onun da "siyasi kapital"a çevriləcəyi qənaətinə gəlinmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti bu istiqamətdə gələcək araşdırmalar üçün baza rolunu oynaması ilə əlaqədardır. Praktiki baxımdan isə, tədqiqat işində e-idarəetmə ilə bağlı irəli sürülən təkliflərdən və nümunə kimi bəhs olunan modellərdən Azərbaycanda yerli özünüidarə orqanlarında vətəndaşların e-iştirakçılığını artırmaq üçün, e-platformaların yaradılması, dizayn tərtibatı və funksiyaların müəyyənləşdirilməsi zamanı istifadə etmək olar. İrəli sürülən təklif və tövsiyələr siyasi mədəniyyətin inkişafında yeni medianın potensialından yararlanmağa imkan verir. Tədqiqat işi həm də bu sahədə təhsil alanlar üçün dərs vəsaiti, eləcə də konfrans mövzusu kimi əhəmiyyətli ola bilər.

**Aprobasiya və tətbiqi.** Tədqiqat işi ilə bağlı müəllifin müxtəlif məqalə və tezisləri xaricdə və Azərbaycanda elmi nəşrlərdə dərc olunmuşdur. Bununla yanaşı, tədqiqatın müəyyən hissələri fənn proqramına daxil edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil (8 yarımfəsil), nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş hissəsi 16823, birinci fəsil 70184, ikinci fəsil 83225, üçüncü fəsil 65919 və nəticə 12585 işarədən ibarətdir. Dissertasiyanın ümumilikdə həcmi isə 248736 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, mövzunun işlənmə dərəcəsi nəzərdən keçirilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri - metodoloji əsasları, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, əsas müddəalar irəli sürülür, işin aprobasiyası və strukturu barədə məlumat verilir.

Dissertasiya işinin **"Siyasi mədəniyyət və informasiya-kommunikasiya texnologiyalarının əsaslarına konseptual baxış"** adlanan birinci fəslində siyasi mədəniyyətin nəzəri və struktur təhlili aparılır, siyasi mədəniyyəti formalaşdıran əsas amillər müəyyən olunur, informasiya-kommunikasiya texnologiyalarının sosial-siyasi və mədəni-ictimai mühitə təsiri haqqında nəzəri yanaşmalar araşdırılır.

**"Siyasi mədəniyyətin nəzəri-struktur təhlili"** adlanan birinci paraqrafda "siyasi mədəniyyət" anlayışı, onun mahiyyəti, mikro və makro səviyyələri, siyasi mədəniyyətin tədqiqat üsulları izah olunur, eləcə də, siyasi mədəniyyətə dair davranış və simvolik yanaşmalar müqayisə edilir. Q. Almond və S. Verbanın "Vətəndaş mədəniyyəti" (1963) nəzəriyyəsi siyasi mədəniyyətlə bağlı ilk nəzəriyyə, həm də siyasi davranış yanaşmasının ilk nümunəsidir.

Nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, fərdlərin siyasi davranışları və siyasi münasibətləri cəmiyyətin siyasi mədəniyyətinin təcəssümüdür. Nəzəriyyədə vətəndaş mədəniyyəti üç siyasi mədəniyyətin vəhdəti kimi səciyyələndirilir. Bununla yanaşı, paraqrafda siyasi mədəniyyət struktur baxımından təhlil edilmiş, əsas komponentləri müəyyən olunmuşdur. Siyasi meyllərə daxil olan siyasi bilik, siyasi duyğular, siyasi inam, eləcə də siyasi mövqe araşdırılmış, siyasi davranışların təsnifatı verilmişdir.

Eyni zamanda, siyasi iştirakçılığın siyasi kapitala çevrildiyi qənaətinə gəlinmişdir. Siyasi inam vətəndaşlarla hökumət arasında qarşılıqlı etibar əsasında yaranır. Sosial kapital vətəndaşlararası sosial inamı ifadə edir və siyasi iştirakçılığa şərait yaradır. Siyasi inkişafı şərtləndirdiyinə görə rasional siyasi iştirakçılığı həm də "siyasi kapital" adlandırmaq olar. Çünki rasional siyasi iştirakçılıq siyasi inkişaf üçün mütləq şərtlərdən biridir.

Birinci fəslin **"Siyasi mədəniyyətin formalaşmasını şərtləndirən amillər"** bölməsində siyasi mədəniyyətin formalaşmasına təsir edən siyasi və qeyri-siyasi amillər araşdırılmışdır. Dövlətin tarixi, geosiyasi vəziyyəti və mədəniyyəti qeyri-siyasi amillərə aid edilir. Xüsusilə, mədəniyyətin dəyişməsinin siyasi mədəniyyətə təsiri çox böyükdür. Siyasi mədəniyyətin formalaşmasında mədəniyyətin rolu həm dəyərlərin dəyişməsi, həm də mövcud siyasi mədəniyyətin inkişafı kontekstində qiymətləndirilə bilər. Dəyərlərin dəyişməsi makro mühitin mikro mühitə təsiri, yəni cəmiyyətin fərdin siyasi mədəniyyətini yeniləməsi ilə baş verir. İlkin mədəni dəyərlər üzrə tədqiqatçılar Şalom Şvarz və Anat Bardi öz araşdırmalarında *mədəni dəyişmənin iki yolla –* "*"uyğunlaşma" və "əvəzləmə" ilə mümkün olduğunu qeyd etmişlər. Birinci halda insanlar əvvəlki dəyərlərin dəyişilmiş həyat şəraitinə uyğun olmadığını anlayırlar. Yeni mədəni dəyərlər siyasi cəhətdən yenilənmiş həyat şəraitində qəbul edilir. İkinci halda isə cəmiyyət təhlükə yaradan məhdud dəyərlərə tənqidi yanaşır və onları əvəz etməyə çalışır.*"[14]

---

[14] Renshon S., Duckitt J. Cultural and Cross-Cultural Political Psychology: Toward the Development of a New Subfield // Political Psychology, - 1997, Vol. 18, No. 2, - p. 236.

Fərdin siyasi mədəniyyətinin inkişafı ilə isə cəmiyyətin siyasi mədəniyyətində dəyişim baş verir. Mədəniyyətin dəyişməsi təbii proses kimi çox vaxt tələb etdiyindən, bu prosesin müxtəlif üsullarla təşviqi dövlətin üzərinə düşür. Siyasi mədəniyyətin formalaşmasında mühüm rol oynayan siyasi amillərə dövlətin quruluşu, siyasi rejim və idarəetmə modeli, siyasi təsisatlar, siyasi liderlər aid edilir. Siyasi miflər, stereotiplər, ideologiyalar, elitanın həyata keçirdiyi "simvolik siyasət" siyasi mədəniyyətin formalaşmasında istifadə olunan əsas üsullara misal ola bilər.

Paraqrafda, eyni zamanda, siyasi mədəniyyətin formalaşmasında, nəsildən-nəslə ötürülməsində, yenilənməsində mühüm amil olan siyasi sosiallaşmadan da geniş bəhs edilir. Siyasi sosiallaşmanın əsasını təşkil edən siyasi kommunikasiyanın mahiyyəti açılır, müxtəlif siyasi sosiallaşma təsisatlarının siyasi mədəniyyətə təsiri təhlil edilir. Əsas siyasi sosiallaşma aktorları olan partiyaların fərqli məzmunlu seçki kampaniyalarının (bridcinq - əlaqə yaradan və bondinq - bağlayan) vətəndaşların siyasi mədəniyyətinə təsir imkanları və istiqamətləri təqdim edilir, müasir dövrdə bütün siyasi sosiallaşma təsisatlarına təsir edən medianın ənənəvi və müasir təsir potensialı izah olunur. Bu zəmində siyasi mədəniyyətin yenilənməsində mühüm amil kimi ictimai fikrin də həm rasional seçim, həm də sosiallaşma nəzəriyyələri kontekstində oynadığı rol müəyyən edilir.

Birinci fəslin **"İKT-in sosial-siyasi və mədəni-ictimai mühitə təsiri haqqında nəzəri yanaşmalar"** adlı üçüncü paraqrafında informasiya-kommunikasiya texnologiyalarının müxtəlif aspektlərdən cəmiyyətə təsirinə dair nəzəriyyələr araşdırılır. "İnformasiya cəmiyyəti" konsepsiyaları daha çox informasiya və güc məsələlərini araşdırmağa çalışmışlar. İnformasiya mühiti özü ilə bərabər yeni həyat tərzi, yeni idarəçilik, institutlar və münasibətlər formalaşdırmışdır. Bu konsepsiyalarda əsas problem cəmiyyətdə yaranan dəyişikliklərin yeni biliklərlə və informasiyaya sahib olanlarla əlaqələndirilməsidir. Media təsiri, mediasiya və mediatizasiya nəzəriyyələri isə daha çox medianın insanlara, cəmiyyətə təsir mexanizmlərini, üsullarını başa düşməyə çalışır. Texnoloji deterministlər və ya texnologiya və cəmiyyət arasında

münasibətləri sosial konstruktivist yanaşma baxımından izah etməyə çalışanlar, həmçinin texnologiya və cəmiyyətlərin birgə mövcudluğunu vurğulayan texnoloji yanaşmalar isə ilk baxışdan davranışlarla bağlı heç bir fikir ortaya qoymasa da, konsepsiyaların mülahizələrinin texnologiyanın gözlənilməz nəticələrinin olduğunu vurğulaması və ya insanların onları məqsədyönlü şəkildə müəyyən niyyətlə yaratdıqlarını qeyd etməsi onların müəyyən davranışlar formalaşdırmaq imkanının olduğunu izah edə bilir. Həm də texnologiya bir alət olduğu üçün müəyyən davranış yaratmaq və fəaliyyət formalaşdırmaq məqsədilə istifadə olunur. Paraqrafda İKT-nin siyasi mədəniyyətin formalaşmasında rolu ilə bağlı aşağıdakı müddəalar irəli sürülmüşdür:

1.Yeni informasiya mühiti və media siyasi mədəniyyətin əsas komponentlərindən olan siyasi biliyin yenilənməsi və formalaşmasına zəmin yaradır.

2.Media vasitələri, kommunikasiya üsulları və strategiyalar ünsiyyət prosesini yaradır, duyğulara, düşüncələrə və hislərə təsir etməklə onları istiqamətləndirir. Mədəni-psixoloji, eləcə də sosial sahəni əhatə edən bu proses siyasi əhval-ruhiyyəni də müəyyən edir.

3.Texnologiyalar və medianın texnoloji quruluşu davranışları dəyişməyə daha çox imkan verir. Məqsədə uyğun elə texnoloji alət tətbiq olunur ki, insanların özləri hiss etmədən davranışları (eləcə də siyasi) dəyişir.

Dissertesiyanın ikinci fəsli **“Müasir çağırışlar kontekstində İKT-nin siyasi mədəniyyətə təsiri”** adlanır. Bu fəsildə müasir dövrdə qlobal çağırışların siyasi mədəniyyətdə təzahürü, müxtəlif kütləvi kommunikasiya vasitələrinin, eləcə də sosial medianın siyasi meyl və davranışlara təsiri, müasir elektron idarəetmə texnologiyalarının, süni intellekt və blokçeyn texnologiyalarının siyasi mədəniyyətə təsir potensialı araşdırılır.

**“Müasir dövrdə qlobal çağırışlar və siyasi mədəniyyət”** adlanan birinci paraqrafda müasirləşmə və postmüasirləşmənin, demokratikləşmənin, siyasi inkişaf tendensiyalarının, texnoloji konvergensiyanın, internet idarəçiliyinin gətirdiyi yeniliklərin, həmçinin dəyər dəyişikliklərinin cəmiyyətlərin siyasi mədəniyyətinə təsiri hərtərəfli tədqiq olunur.

Ronald İnqlhart və Kristian Veltselin irəli sürdüyü yeni postmaterialist dəyərlər – “özünüifadə” və “sekulyar-rasional” dəyərləri dünya mədəni xəritəsinə əsasən izah olunur. Bu dəyərlərin siyasi bilik, düşüncə və davranışlarda təsiri ayrı-ayrılıqda göstərilməyə çalışılır. Hesab olunur ki, sənaye cəmiyyətlərində üstünlük təşkil edən, vətəndaşların tələbkarlığının və siyasi iştirakçılığının artmasını təmin edən sekulyar-rasional dəyərlər postsənaye cəmiyyətlərində inkişaf edərək mənəvi azadlıq və özünüifadə dəyərlərilə əvəz olunur. Bu isə kütləvi siyasi iştirakçılıq formalarından daha çox fərdi siyasi iştirakçılığın yeni növlərini ortaya çıxarır. Öz növbəsində liberal demokratiyanın genişlənməsini təşviq edən bu dəyərlər müxtəlif cəmiyyətlərdə fərqli nəticələrə səbəb olur. Bu baxımdan uğurlu demokratik cəmiyyətlərin qurulması üçün demokratiyanın mahiyyətini anlamaq əsas şərtdir.[15]

Bununla yanaşı, müasir qlobal tendensiyalar olan “Yaxşı idarəçilik”, elektron idarəçilik kontekstində siyasi inkişaf təhlil edilir. Siyasi inkişaf idarəetmə modellərində və siyasi institutlarda dəyişikliyi, demokratikləşmə həm siyasi təsisatlarda, həm də dəyərlərdə liberallaşmanı, müasirləşmə idarəetmədə texnologiyaların tətbiqini, həyat tərzində postmaterialist dəyərlərin yayılmasını, qlobal internet və media açıq məlumatlılığı, azad interneti, müasir texnologiyalar isə mədəniyyətdə dəyişikliyi tələb etdiyi üçün siyasi mədəniyyətin müxtəlif komponentləri çoxsaylı təsirlərə məruz qalır.

Müxtəlif siyasi mədəniyyətə malik cəmiyyətlərdə qlobal çağırışlara fərqli reaksiya və nəticələr təzahür edir.

İnformasiya-kommunikasiya texnologiyalarının təsiri ilə müasir qlobal çağırışlar artıq fərdlərin və cəmiyyətlərin siyasi mədəniyyətlərinə dövlətin iştirakı olmadan müdaxilə imkanına malikdir. Cəmiyyətin müasirləşməsi, demokratiyanın əsas şərti olan azad internet və informasiyaya əlçatanlıq bunu təmin edən əsas amillərdir.

**“KIV-in və sosial medianın siyasi meyl və davranışlara təsiri”** adlanan ikinci paraqraf ənənəvi və müasir media növlərinin ayrı-ayrılıqda siyasi bilik, siyasi duyğular və davranışları dəyişə bilmə

---

[15] The civic culture transformed: from allegiant to assertive citizens / edited by Dalton R. J., Welzel C. - New York: Cambridge University Press, - 2014. – p.92.

potensialı haqqında fikirləri, müxtəlif siyasi proseslərdə yeni media növlərindən istifadəyə dair nümunələri özündə ehtiva edir.

Müasir kütləvi kommunikasiya vasitələrinin siyasi mədəniyyətə təsiri həm siyasi, həm də qeyri-siyasi kommunikasiyada inandırma və cəlbetmə ilə əlaqədardır. Bu gün qəzetlər, radio və televiziya differensiallaşmış, fərdiləşmişdir. Lakin kütləvi şüurun istiqamətləndirilməsində hələ də onların kütləvilik xüsusiyyətindən istifadə olunmaqdadır. Kütləvi təsir isə adətən manipulyativ xarakterə malik olur. Formatlama üsulu ilə yanaşı müasir dövrdə bu funksiyanı rəqəmsal mətbuat sosial medianın təsir alətlərindən yararlanaraq, radio siyasi verilişi aparan müxbir, siyasətçinin nitqi və ya hekayənin dili ilə, televiziya isə əvvəlki dövrlərdə olduğu kimi audivizual imkanları, məzmun seçimləri, eyni zamanda, rəqəmsallaşmanın verdiyi imkanlarla (interaktivlik, fərdiləşmə və əhatə dairəsinin genişlənməsi ilə) həyata keçirir.

Sosial şəbəkələr isə bu gün yeni medianın ən aktual növləridir. Sosial media məzmunu və texniki imkanları ilə insanların siyasi qərar və davranışlarından öz məqsədləri üçün istifadə edə bilir. Yarımçıq və ya təhrif olunmuş saxta məlumatlar, sensasion şəkildə hazırlanmış və əsas medianın məlumatını təhrif edən informasiya ("fake news"), video və qrafik təsvirlərə əsaslanan məqsədyönlü manipulyativ informasiya ("deep-fake"), insanların hislərinə gülüş vasitəsilə təsir edən memlər, neqativ fikirləri aşılayan saxta tənqidi troll materialları da bu qəbildəndir. Manipulyativ məzmun daha çox ictimai rəyi formalaşdırmaqla siyasi mədəniyyətə təsir edir. Sosial şəbəkələrdə məhz siyasi manipulyasiya məqsədilə istifadə olunan əsas texniki tələlər aşağıdakılardır:

1. Mikro hədəfləmə və psixoqrafik profilləşdirmə
2. İzləyicilərin tələblərinə və diqqətinə əsaslanan sosial media alqoritmləri
3. Avtomatlaşdırılmış botlar [16]

Həm KIV, həm də sosial media siyasi mədəniyyətin komponentlərinə ayrı-ayrılıqda və ya bütövlükdə nüfuz edərək onları

[16] Neudert L. M. and Marchal N. Polarisation and the use of technology in political campaigns and communication // Brussels: Scientific Foresight Unit (STOA), EPRS, - PE 634.414 – March, - 2019. – p. 22.

lazımi istiqamətə yönləndirir. Siyasi bilik və yanaşmalara, eləcə də duyğulara təsir etmək üçün strateji üsullar və texnologiyalar hazırlanır. Cəmiyyət üzvləri siyasi bilik və düşüncələrinə uyğun müəyyən iştirakçılığa sövq edilir. Süni yollarla siyasi biliyə təsir etmək üçün yanlış və məhdud informasiyadan, duyğu və hislərə təsir etmək üçün emosional məzmundan, birbaşa davranışlara təsir etmək üçün isə texniki quruluşdan və simulyasiyadan istifadə olunur.

Ənənəvi və müasir rəqəmsal KIV əsasən koqnitiv və emosional təsir imkanlarına malikdirsə, sosial şəbəkələr texnoloji imkanları ilə vətəndaşların siyasi davranışlarına və iştirakçılığına daha çox təsir edir.

**“Müasir elekton idarəetmə texnologiyalarının və süni intellektin iştirakçı siyasi mədəniyyətin formalaşmasında rolu”** adlanan üçüncü paraqraf informasiya-kommunikasiya texnologiyalarının siyasi mədəniyyətə digər təsir istiqamətinin təhlili ilə əlaqədardır. Burada e-hökumət, e-demokratiya, Biz(e)-demokratiya, vətəndaş təşəbbüslü elektron tətbiqlərin istifadəsi araşdırılır. Paraqrafda e-hökumətin açıq məlumatlar, onlayn xidmət və e-iştirakçılıq kimi funksiyaları təhlil olunur.

E-hökumət haqqında araşdırma aparan müəlliflərdən biri, M. Kassen bildirir ki, *e-hökumət milli prioritet məsələləri əhatə edən layihə kimi milli; dövlət idarəçiliyinin səmərəliliyini artıran alət kimi iqtisadi; beynəlxalq əməkdaşlığın gündəmi kimi qlobal; demokratikləşməni təmin edən universal alət kimi siyasi ölçülərə malikdir*.[17] Burada milli ölçü daha çox milli maraq və mövcud siyasi mədəniyyətlə, iqtisadi ölçü kapitalizm dəyərləri, eləcə də beynəlxalq iqtisadi rəqabətlilik, qlobal ölçü struktur konvergensiya (bütün dövlətlərdə e-idarəçiliyin tətbiqi), siyasi meyar isə demokratikləşmə dəyərləri ilə əlaqəlidir. Bu meyarlar həm də siyasi müasirləşmə, siyasi inkişaf və demokratikləşmə ilə bağlı olduğu üçün e-hökumətin dövlətin bu çağırışlara reaksiyasında oynadığı rolu müəyyən etməyə imkan verir.

E-hökumətin müasirləşməyə təsirindən bəhs edən tədqiqatçı S. Xia elektron idarəetmənin siyasi modernləşməyə təsirini üç səviyyədə

[17] Kassen M. E-Government as a Universal Political Value. In: Understanding Systems of e-Government // New York: Rowman & Littlefield, - 2015. – p. 9

(hökumətlərin şəffaflığı, oflayn siyasi iştirak, azadlıq) nəzərdən keçirmişdir.[18] Bunların hər biri demokratikləşməni də əhatə edir. Müəllifin bildirdiyi kimi, açıq məlumatlar hökumətlərin şəffaflığına təsir edən əsas əlamətlər olduğu halda, oflayn siyasi iştirak və azadlığın səviyyəsi e-iştirakla daha çox əlaqəlidir.[19]

E-demokratiya bir tərəfdən də parlamentlərin, partiyaların, yerli icra hakimiyyətlərinin saytlarında və elektron tətbiqlərində vətəndaşların iştirakçılığının təmin edilməsi sayəsində mümkün olur.

Siyasi kommunikasiyanın yeni növü olan e-idarəçilik dövlət siyasətinə və cəmiyyətin mənəviyyatına uyğun təşkil olunmaqla onun problemlərini daha səmərəli həll etmək imkanına malikdir. Elektron idarəetmənin qlobal mediadan fərqi odur ki, ziyanlı liberal dəyərlərə əsaslanmır, sosial şəbəkələr kimi hüdudsuz azad söz və iştirak imkanlarına malik deyil.

Müəyyən olunmuşdur ki, həm hökumətin, həm də vətəndaşların yönləndirdiyi e-demokratiyada istifadə olunan tətbiqlər, süni intellekt və "blokchain" texnologiyalar siyasi mədəniyyətə daha çox qeyri-formal institutların zəiflədilməsi (rüşvətxorluq, sosial inamsızlıq), hökumətlə idarəolunanlar arasında məsafənin daralması, vətəndaşların siyasi iştirakçılığının, eləcə də sistemə və performansa inamının artması, onların düzgün siyasi bilik, siyasi mövqe və qərarlarının formalaşmasını təmin etmək yolu ilə təsir edə bilir.

Dissertasiya işinin üçüncü fəsil **"Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının siyasi mədəniyyətin inkişafında rolu"** adlanır. Bu fəsildə informasiya-kommunikasiya texnologiyalarının Azərbyacanda siyasi mədəniyyətin yenilənməsində rolu tədqiq olunmuş və onun səmərəli inkişafı üçün mövcud imkanlar müəyyənləşdirilmişdir.

Üçüncü fəslin **"KIV-in siyasi mədəniyyətin inkişafına təsiri"** adlanan birinci bölməsində Azərbaycanda kütləvi informasiya vasitələrinin oynadığı rola qısa tarixi nəzər yetirilmiş, daha sonra

---

[18] Xia S. E-Governance and Political Modernization: An Empirical Study Based on Asia from 2003 to 2014, - Basel: Administrative Science, 7 (25), - 2017. - p. 5
[19] Xia S. E-Governance and Political Modernization: An Empirical Study Based on Asia from 2003 to 2014, - Basel: Administrative Science, 7 (25), - 2017. - p. 11

rəqəmsal və sosial medianın cəmiyyətə, eləcə də, siyasi mədəniyyətə müasir təsirləri araşdırılmışdır.

Müasir dövrdə qloballaşan rəqəmsal media məzmunu və strukturu ilə postmodern dəyərlərin (sekyular-rasional: siyasi şüurluluq, siyasi savadlılıq, dünyəvi dəyərlər, tolerantlıq; özünüifadə: mənəvi azadlıq, söz azadlığı, siyasi iştirakçılıq) təşviqində mühüm rol oynayır. Odur ki, qlobal inteqrasiyanın və inkişafın bir hissəsi olan Azərbaycanda da ondan yayınmaq qeyri-mümkündür. Həmçinin, sekulyar-rasional və özünüifadə dəyərləri bir çox dövlətlərdə siyasi mədəniyyətin inkişafını şərtləndirən əsas amil kimi qiymətləndirildiyindən problem bu kontekstdə tədqiq edilmişdir. Dünya siyasi mədəniyyətini bu dəyərlərə görə araşdıran R.İnqlhartın təşkil etdiyi və Azərbaycanda iki dəfə (2011, 2018) keçirilən Ümumdünya Dəyərlər Sorğusunun məlumatlarından istifadə edilmişdir.

Müasir internet mediası özünüifadə dəyərləri zəminində fikir və söz azadlığını təmin etməklə, həm də həyat tərzinə yeni yanaşmaları, yeni düşüncə tərzini də təşviq etmiş olur. Bu prosesin müsbət tərəfləri ilə yanaşı mənfi nəticələri də ortaya çıxır. Mənfi nəticələr əyləncəvi kontentdə, həmçinin emosionallığa malik məzmunlarda daha çox müşahidə olunur. Bu baxımdan informasiya əsrində siyasi mədəniyyət iki bir-birinə zidd çağırışla üzləşir: Özünüifadə dəyərləri və bəzən də öz dəyərlərindən imtinaya təşviq. Belə olan halda, yerli medianın üzərinə yeni çağırışlara diqqətli yanaşma kimi mühüm vəzifə düşür.

Paraqrafda Dünya Dəyərlər Sorğusunun Azərbaycana dair nəticələrinə əsasən müəyyən olunur ki, Azərbaycan demokratiyaya inam, vətənpərvərlik, sekulyarlıq baxımından yüksək göstəricilərə malikdir. Bununla yanaşı, ənənəvi dəyərlər də cəmiyyətdə üstünlük təşkil edir. Azərbaycanda ənənəvi dəyərlərə rasional yanaşma həm də milli kimliyə təhdid xarakterli qlobal çağırışlara cavab şəklində özünü göstərir. Bu həm də özünüifadə dəyəri ilə bağlıdır və həmin prosesdə azərbaycançılıq ideologiyasının böyük rolu vardır.

Tədqiqat nəticəsində müəyyən olunur ki, Azərbaycanda siyasi biliyin təmin olunmasında sosial şəbəkələrin rolu böyükdür. Siyasi marağı olan vətəndaşların maariflənməsi, onlayn müzakirələr,

vətəndaşlar tərəfindən təkliflərin irəli sürülməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması kimi səmərəli iştirakçılıq üçün şəraitin yaranması demokratik siyasi mədəniyyətin formalaşmasının göstəricisidir. Azərbaycanda sosial şəbəkələrin siyasi iştirakçılığa təsiri isə əsasən dövlətyönümlü fəaliyyətlə əlaqəlidir. Eyni zamanda, sosial medianın xüsusən bələdiyyə seçkilərində iştirakçılığı artırmaq üçün yetərincə istifadə olunmadığı qeyd edilir.

Müəllif onlayn siyasi iştirakçılığın, xüsusilə, Vətən müharibəsi dövründə və ondan sonra gücləndiyinə diqqət çəkir. Prezident İlham Əliyev gənclərin bu dövrdə sosial şəbəkələrdə fəallığını yüksək qiymətləndirmişdir: "*Vətən müharibəsi dövründə bizim gənclərimiz sosial şəbəkələrdə çox fəal oldular və deyə bilərəm ki, bütövlükdə müharibə zamanı gedən informasiya müharibəsində də biz qalib gəldik. Sosial şəbəkələrdəki fəaliyyət hesab edirəm ki, müharibə dövründə çox uğurlu olub və bütövlükdə indi Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün sosial şəbəkələrin çox böyük rolu var*".[20]

Bundan başqa, yeni mediada vətənpərvərlik, azərbaycançılıq, milli-mənəvi dəyərlərin təbliği, tolerantlıq kimi müsbət keyfiyyətlərin tərənnümündə oynadığı rol da açılıb göstərilir. Həmçinin, 44 günlük müharibə və postmüharibə dövründə kütləvi kommunikasiya vasitələrinin siyasi mədəniyyətin formalaşmasında oynadığı rol da araşdırılır. Bu dövrdə inam indeksini müəyyənləşdirməyə çalışan Sosial Tədqiqatlar Mərkəzinin 2021-ci il hesabatından istifadə olunur. Postmüharibə dövründə vətəndaşların siyasi inam və milli özgüvənin artmasında ölkə rəhbəri İlham Əliyevin müxtəlif xarici və yerli media kanallarına verdiyi müsahibələrin yayımının əhəmiyyəti vurğulanır.

Paraqrafda müasir dövrdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının vətəndaşların siyasi mədəniyyətinə təsirini təhlil etmək üçün siyasi mədəniyyətin üç komponenti (siyasi bilik, siyasi düşüncə və siyasi davranış) kontekstində keçirilən kiçik həcmli sorğunun nəticələri (əsasən özəl sektoru və gənc təbəqəni təmsil edən 212 nəfərdən ibarət) də təqdim edilir. Belə nəticəyə gəlinir ki, sosial şəbəkələrin sorğu iştirakçılarının siyasi maraqlarına (vətəndaşların mövcud yanaşmaları ya heç

[20] https://t.me/s/operativmm

dəyişməmiş, ya da malik olduqları mövqe daha da güclənmişdir) və fəallığına təsiri müsbət istiqamətdədir və bu, onların təhsilli və məşğul vətəndaş olmaları ilə əlaqəlidir. Müəllif sorğunun bir sıra çatışmaz cəhətlərini qeyd etməklə yanaşı, ümumən sosial medianın siyasi maarifləndirmədə, siyasi duyğuların və hislərin formalaşmasında oynadığı rolun siyasi davranışlara təsirdən daha böyük olduğu nəticəsinə gəldiyini bildirir.

Üçüncü fəslin ikinci paraqrafı olan **“E-hökumət kontekstində siyasi mədəniyyət”** bölməsində Azərbaycanda e-hökumətin inkişafına dair qanunvericilik araşdırılmış, bununla yanaşı e-hökumətin üç əsas funksiyasının ölkəmizdə işləklik səviyyəsi müəyyən olunmuşdur. Hələ 1993-cü ilin avqust ayında Azərbaycanla Amerika qitəsi arasında birbaşa əlaqə yaradan peyk-rabitə sisteminin açılışı zamanı çıxışında Ümummilli lider H.Əliyev demişdir: “*Azərbaycanın gələcəyi elm və texnologiyanın inkişafından, onların milli maraqların həyata keçirilməsində tətbiqindən, telekommunikasiyanın qeyri-məhdud imkanlarından asılıdır*”.[21]

İdarəetmədə və siyasi mədəniyyətin inkişafı üçün tətbiq edilən əsas yeniliklər “Elektron hökumət”in yaradılması ilə əlaqədardır. Paraqrafda E-hökumətlə əlaqədar qəbul olunmuş normativ-hüquqi aktlar, qanunvericilik bazası, yaradılmış qurumlar haqqında məlumat verilmiş, bu istiqamətdə mühüm fəaliyyət göstəricilərinə malik olan “ASAN xidmət”in mövqeyi elektron xidmətlər kontekstində araşdırılmışdır. “ASAN xidmət”in “ASAN növbə”, “ASAN ödəmə”, ASAN radio, “ASAN imza”, “Dövlət Xidmətləri Portalı” kimi platformalarının işi izah edilmişdir. Bu xidmətin ən unikal elektron xidmət platformalarından biri olaraq, vətəndaş məsuliyyətini və siyasi sistemə inamını artırmağa, onun siyasi iştirakçılığını yüksəltməyə hədəflənmiş siyasətin bir hissəsi olduğu vurğulanmışdır.

E-xidmətlər baxımından vətəndaşların onlayn siyasi iştirakçılığına nail olmaq üçün eGov2.0 versiyasında mobil hökumət platforması (“myGov”) yaradılması, 2011-ci ildə Azərbaycan

---

[21] Баба-заде В. М. Виртуальная цивилизация в современном мире нравственных ценностей и убеждений. Азербайджан: прошлое, настоящее, будущее // Бакинский Международный Гуманитарный Форум: «XXI век: надежды и вызовы» - Баку, - 4-5 октябр, - 2012 года. - с. 318-321.

Respublikasının Açıq Hökumət Tərəfdaşlığına qoşulması qeyd edilmiş, onların siyasi mədəniyyətə təsir potensialı araşdırılmışdır. Açıq məlumatlar portalı və elektron hökumət portalında, eləcə də müxtəlif dövlət orqanları və qurumlarının saytlarında qanunvericilik, həyata keçirilmiş tədbirlər, gələcək layihələr, ictimai rəy sorğuları və s. haqqında məlumatlar yerləşdirildiyi üçün vətəndaşlar istənilən vaxt onlara lazım olan informasiyanı bu mənbələrdən əldə edirlər və bu siyasi biliyin təmin olunmasında mühüm göstəricidir. Bununla yanaşı, vətəndaşlara onlayn xidmətlərin əlçatanlıq səviyyəsi araşdırılmış, bu məqsədlə "Digital Azerbaijan" platformasında yerləşdirilmiş sorğu nəticələrindən də istifadə edilmişdir. Müəyyən edilmişdir ki, onlayn iştirakçılığın e-xidmətlərdən istifadə növü vətəndaşlar arasında getdikcə artmaqdadır. Bu, vətəndaşların elektron və texniki bilik və bacarıqlarının artmasını sürətləndirir, nəticədə onların gözləntiləri daha da çoxalır. Elektron portal və e-xidmətlər şəffaflığı, açıqlığı təmin etməklə siyasi mədəniyyətə müsbət təsir göstərir, onlayn siyasi iştirakçılığı artırır, demokratikliyi tənzimləmək və nəzarəti təmin etməklə vətəndaşlarla hökumət arasında yeni münasibətlər yaradır.

Ümumilikdə müəyyən olunmuşdur ki, Azərbaycanda e-xidmətlərdən istifadədə iştirakçılıq günbəgün artsa da, vətəndaşların qərarların qəbul edilməsində onlayn iştirakı və təkliflərini irəli sürmək üçün şəraitin genişləndirilməsinə ehtiyac var. Bu sahədə maarifləndirmə və təşviqat əsas məsələlər olsa da, cəmiyyətin siyasi, mənəvi, texnoloji savad baxımından hazırlığı da vacib amillərdir. Müəllif vətəndaş təşəbbüslərinə dair addımlardan biri kimi 2021-ci ildə yaradılmış "Onlayn ictimai nəzarət" platformasını qeyd edir və həmin platformanın təmin etdiyi imkanları təsvir edir.

Eyni zamanda, Azərbaycanda Milli Məclisin, partiyaların, yerli icra hakimiyyəti orqanlarının, xüsusilə bələdiyyələrin onlayn platformlarını siyasi iştirakçılığı təmin etmək baxımından təhlil edən müəllif bu platformaların xarici təcrübələrdən də yararlanaraq daha da inkişaf etdirilə biləcəyini vurğulayır. Bununla vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesində iştirakına, e-iştirakçılığın geniş şəkildə təmin olunmasına şərait yaranacağını izah edir.

Disserasiyanın **Nəticə** hissəsində hazırki tədqiqatın aparılması nəticəsində əldə edilmiş əsas müddəalar ümumiləşdirilir və işin yekunları əks olunur.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı tezis və məqalələr nəşr olunmuşdur:**


1. Dövlətin idarə olunmasında siyasi mədəniyyətin rolu// "Müasir dövrdə effektiv idarəetmənin problemlər" mövzusunda V Respublika elmi-praktik konfransının materialları. - Bakı: Azərbaycan Turizm və Menecment Universiteti, - 2019, – s. 213-216.
2. Siyasi mədəniyyətin mahiyyəti və nəzəri-metodoloji təhlili// - Bakı: Tarix və onun problemləri. Elmi-nəzəri jurnal, - 2021. № 2, - s. 205-210.
3. Siyasi mədəniyyətin formalaşmasına təsir edən ənənəvi və müasir amillər// - Bakı: AMEA Məruzələr. Elmi-nəzəri jurnal, - 2021. № 1-2 (77), - s. 79-87.
4. Yeni medianın Azərbaycanda siyasi mədəniyyətin formalaşmasına təsiri// - Bakı: Geostrategiya. İctimai-siyasi, elmi-nəzəri jurnal, - 2021. № 5 (65), - s. 38-45.
5. Azərbaycanda siyasi mədəniyyətin inkişafına tarixi baxış// "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda II Beynəlxalq elmi konfransın materialları. – Bakı: AMEA, Elm və Tarix İnstitutu, – 2021, – s. 270-277.
6. Yeni media ilə siyasi mədəniyyətə strateji təsir üsulları// - Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai, pedaqoji-psixoloji elmlər seriyası, - 2021. № 3 (69), – s. 42-50.
7. Sosial şəbəkələrin siyasi mədəniyyətə təsiri// - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, - 2021. № 2 (74), - s. 279-293.
8. Directions of information and communication technologies affecting political culture// - 5.Uluslararası 19 Mayıs Yenilikçi Bilimsel Yaklaşımlar Kongresi. - Samsun, Türkiye. – 2021. - s. 329-330.
9. Современные вызовы, стоящие перед политической культурой// - Одеса: Науковый журнал «Політикус», - 2021. № 3, - с. 102-108.

10. Possibilities of using modern e-management technologies and artificial intelligence for development of political culture// - 5th İnternationale Black Sea Modern Scientific Research Congress. – Rize, Turkiye, 2023. – s. 291.
11. İnformasiya-kommunikasiya texnologiyaları və siyasi mədəniyyətin yenilənməsi: nəzəri yanaşmaların təhlili// - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal, - 2023. № 4 (84), - s. 291-299.
12. İnformasiya əsrinin qlobal çağırışları və post-müharibə dövründə Azərbaycanda siyasi mədəniyyətə təsir// - "Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində" mövzusunda beynəlxalq konfransın materialları. – Bakı: Azərbaycan Universiteti, 2024. – səh. 28-31.

Dissertasiyanın müdafiəsi 26 dekabr 2024-cü il tarixində saat 13:30-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.09.2024
Kağızın formatı: A5
Həcm: 38.958
Tiraj: 80